*Elmi Şuranın 3 oktyabr 2025-ci il*
*tarixli qərarı ilə təsdiq edilmişdir*

# BAKI BİZNES UNİVERSİTETİNDƏ MƏRKƏZLƏŞDİRİLMİŞ DAXİLİ MONİTORİNQİN APARILMASI QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Bakı Biznes Universitetində fəaliyyət istiqamətləri üzrə mərkəzləşdirilmiş daxili monitorinqin planlaşdırılması, təşkili, nəticələrinin qiymətləndirilməsi və təkmilləşdirmə tədbirlərinin icrası qaydalarını müəyyən edir.

1.2. Daxili monitorinq Universitetin fəaliyyətinin akkreditasiya meyarlarına, Strateji İnkişaf Planına, daxili normativ sənədlərə, o cümlədən müvafiq əsasnamələrə və müəyyən edilmiş keyfiyyət hədəflərinə uyğun olaraq həyata keçirilir.

1.3. Monitorinq universitetin struktur bölmələrinin fəaliyyətini, həyata keçirilən prosesləri, mövcud resursları və əldə edilmiş nəticələri əhatə edir.

1.4. Monitorinqin nəticələri idarəetmə qərarlarının qəbulunda, özünüqiymətləndirmə hesabatlarının hazırlanmasında, fəaliyyət planlarının yenilənməsində və keyfiyyətin davamlı yüksəldilməsində istifadə olunur.

## 2. Monitorinqin məqsədi və vəzifələri

2.1. Monitorinqin məqsədi universitetin müvafiq sahələr üzrə fəaliyyətinin faktiki vəziyyətini qiymətləndirmək, inkişaf ehtiyaclarını müəyyənləşdirmək və təkmilləşdirməni təmin etməkdir.

2.2. Monitorinqin əsas vəzifələri aşağıdakılardır:

- Strateji məqsəd və hədəflərin yerinə yetirilməsini təmin etmək;
- Fəaliyyətin akkreditasiya meyarlarına və daxili tələblərə uyğunluğunu qiymətləndirmək;
- Proseslərin və resurslardan istifadənin səmərəliliyini müəyyənləşdirmək;
- Maraqlı tərəflərin rəy və təkliflərini öyrənmək;
- Güclü tərəfləri, çatışmazlıqları və riskləri aşkar etmək;
- Təkmilləşdirmə tədbirlərini müəyyənləşdirmək və onların icrasını yoxlamaq;
- Əvvəlki monitorinqlərin nəticələri ilə müqayisədə dəyişiklikləri qiymətləndirmək.

## 3. Monitorinqin əsas istiqamətləri

3.1. Monitorinq aşağıdakı yeddi əsas sistem və onların alt sistemləri üzrə aparılır:

| № | Əsas istiqamətlər | Alt istiqamətlər |
|---|---|---|
| 1 | Strateji inkişaf | 1.1. Missiya, strategiya, strateji istiqamətlər və hədəflər.<br>1.2. Strateji İnkişaf Planının icrası və onun monitorinq mexanizmi. |
| 2 | Keyfiyyət təminatı | 2.1. Keyfiyyət təminatı siyasəti.<br>2.2. Keyfiyyət təminatı mexanizmləri.<br>2.3. Keyfiyyət mədəniyyəti. |
| 3 | Təlim və tədris | 3.1. Qəbul və əvvəlki kvalifikasiyaların tanınması.<br>3.2. Təhsil proqramları.<br>3.3. Tədrisin təşkili.<br>3.4. Tədris metodları və üsulları.<br>3.5. Təlim və tədris resursları.<br>3.6. Bilik və bacarıqların qiymətləndirilməsi və təhsil sənədlərinin verilməsi.<br>3.7. Professor-müəllim heyəti.<br>3.8. Tələbəyönümlü tədris.<br>3.9. Proqramların monitorinqi və yenilənməsi.<br>3.10. Karyera xidməti və məzunlarla əlaqə. |
| 4 | Elmi-tədqiqat | 4.1. Elmi-tədqiqat strategiyası.<br>4.2. Tədqiqat resursları.<br>4.3. Elmi fəaliyyət və nəticələr.<br>4.4. Akademik dürüstlük mexanizmləri. |
| 5 | İdarəetmə sistemi | 5.1. İdarəetmə orqanları.<br>5.2. İnsan resursları.<br>5.3. Maliyyə resursları.<br>5.4. İnformasiya idarəetmə sistemi.<br>5.5. İctimaiyyətlə əlaqələr. |
| 6 | İnfrastruktur | 6.1. Tədris infrastrukturu.<br>6.2. Elmi-tədqiqat infrastrukturu. |
| 7 | Beynəlmiləlləşmə | 7.1. Beynəlmiləlləşmə siyasəti.<br>7.2. Proseslərin idarə edilməsi və təşkilati struktur.<br>7.3. Ayrılan resurslar.<br>7.4. Fəaliyyət nəticələri. |

3.2. Hər bir idarəetmə orqanı yuxarıdakı istiqamətlər üzrə konkret meyarları və göstəriciləri müəyyən edir. Həmin meyar və göstəricilər müvafiq akkreditasiya indikatorlarına, universitetin strateji hədəflərinə, daxili normativ sənədlərə, o cümlədən müvafiq əsasnamələrə, müəyyən edilmiş keyfiyyət hədəflərinə uyğun olaraq müəyyənləşdirilir və struktur vahidlərinin iş planlarına daxil edilir.

**4. Monitorinqin təşkili və planlaşdırılması.**

4.1. Monitorinqin aparılması üçün universitet rəhbərliyinin əmri ilə monitorinq qrupu və ya istiqamətlər üzrə işçi qruplar yaradılır. Əmrdə qrupun tərkibi və monitorinqin əhatəsi göstərilir.

4.2. Monitorinqin ümumi əlaqələndirilməsi Universitet üzrə Mərkəzləşdirilmiş Monitorinq Komissiyası tərəfindən həyata keçirilir. Komissiyanın tərkibində müvafiq alt komissiyalar yaradıla bilər.

4.3. Monitorinqlər illik plan əsasında həyata keçirilir. Plan hazırlanarkən əvvəlki monitorinq nəticələri, strateji prioritetlər, mövcud risklər və maraqlı tərəflərin müraciətləri nəzərə alınır.

4.4. İllik planda əsas istiqamət və alt istiqamətlər, məqsəd və əhatə dairəsi, meyarlar və ölçülə bilən göstəricilər, məlumat mənbələri və metodlar, icra müddəti və məsul şəxslər, nəticələrin təqdim edilməsi forması göstərilir.

**5. Məlumatların toplanması və qiymətləndirmə qaydası.**

5.1. Monitorinq zamanı sənəd təhlili, statistik təhlil, sorğu, müsahibə, müşahidə və elektron sistem məlumatlarından istifadə edilir.

5.2. Əsas məlumat mənbələrinə strateji və illik fəaliyyət planları, müvafiq əsasnamələriun tələbləri, struktur bölmələrinin hesabatları, iclas protokolları, metodik vəsaitlər, təhsil proqramları, sillabuslar, qiymətləndirmə nəticələri, LMS məlumatları, elmi fəaliyyət göstəriciləri və resurs uçotu sənədləri daxildir.

5.3. Hər nəticə müvafiq qaydada əsaslandırılmalıdır.

5.4. Mümkün olduqda eyni məsələ üzrə müxtəlif mənbələrdən əldə edilmiş məlumatlar müqayisə edilir.

5.5. Sənədin mövcudluğu ilə yanaşı, onun faktiki tətbiqi və nəticəsi də qiymətləndirilir.

5.6. Sorğularda iştirak könüllü olmalı, iştirakçılara sorğunun məqsədi və məlumatların istifadəsi barədə əvvəlcədən məlumat verilməlidir.

5.7. Qiymətləndirmə müəyyən edilmiş müvafiq qiymətləndirmə sistemləri, akkreditasiya meyarları, daxili qaydalar, təsdiqedici sənədlər əsasında aparılır.

**6. Hesabatın hazırlanması və nəticələrin müzakirəsi**

6.1. Monitorinq başa çatdıqdan sonra Komissiya və alt komissiyalar tərəfindən hesabat hazırlanır. Hesabatda monitorinqin məqsədi, əhatə dairəsi və müddəti; istifadə edilmiş meyarlar, metodlar və məlumat mənbələri; əsas və alt istiqamətlər üzrə nəticələr; güclü tərəflər, uyğunsuzluqlar və onların mümkün səbəbləri; əvvəlki nəticələrlə müqayisə və təkmilləşdirmə tövsiyələri əks olunur.

6.2. Hesabat layihəsi faktiki məlumatların dəqiqləşdirilməsi üçün aidiyyəti struktur bölməyə təqdim edilir. Bölmənin əsaslandırılmış izahları və sübutları nəzərdən keçirilir.

6.3. Yekun hesabat aidiyyəti idarəetmə orqanında müzakirə olunur və nəticələr üzrə qərarlar rəsmiləşdirilir.

6.4. Nəticələrin ümumiləşdirilmiş hissəsi məxfilik tələbləri nəzərə alınmaqla maraqlı tərəflər üçün əlçatan edilir.

**7. Sənədləşdirmə və təkmilləşdirmə tədbirləri**

7.1. Aşkar edilmiş çatışmazlıqlar üzrə tədbirlər planı hazırlanır. Hər tədbir üçün çatışmazlıq, onun səbəbini aradan qaldıran konkret fəaliyyət, məsul struktur və ya şəxs, icra müddəti, ölçülə bilən gözlənilən nəticə və icranı təsdiq edən sübutlar müəyyənləşdirilir.

7.2. Tədbirlərin icrası Universitetin rəhbərliyi və Komissiya tərəfindən izlənilir.

7.3. Təkrar monitorinq zamanı tədbirin həyata keçirilməsi ilə yanaşı, problemin həlli və əldə edilmiş nəticənin davamlılığı yoxlanılır.

7.4. Monitorinq sisteminin səmərəliliyi hər il əhatəlilik, məlumatların etibarlılığı, hesabatların vaxtında təqdim edilməsi, tövsiyələrin icrası və təkrar çatışmazlıqların azalması göstəriciləri üzrə qiymətləndirilir.

7.5. Qiymətləndirmənin nəticələrinə əsasən monitorinq meyarları, metodları və təşkilati prosedurlar yenilənə bilər.

7.6. Bu Qaydalar universitetin müəyyən etdiyi qaydada təsdiq edildikdən sonra qüvvəyə minir.